**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**
**“İqtisadiyyat” kafedrasının müdiri**
**i.ü.f.d., dos. S.İ.Hümbətova**
**12 sentyabr 2025-ci il**

**“Azərbaycan iqtisadiyyatı” fənni üzrə**

# İŞÇİ TƏDRIS PROQRAMI
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | 00157 |
| **Fənnin növü:** | Məcburi |
| **Tədris ili:** | 2024/2025 |
| **Fənnin tədris semestri:** | yaz/payız |
| **Tədris forması:** | əyani |
| **Fakültə:** | |
| **Qrup:** | |
| **Tədris yükü:** | 60 saat (mühazirə/məşğələ-30/30) |
| **Kredit sayı:** | 6 |
| **Kafedra:** | İqtisadiyyat |

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:**
**E-mail ünvanı:**
**İş telefonu:**

**III. Tələb olunan dərsliklər va dərs vəsaitləri.**

***Əsas ədəbiyyat:***

1. Ədalət Muradov Elşən Bağırzadə - Azərbaycan İqtisadiyyatı (infoqrafika) Bakı 2021
2. Elçin Süleymanov. F. Rəhmanov Azərbaycan iqtisadiyyatı .Bakı 2021

***Əlavə ədəbiyyat:***

1. Azərbaycan Milli Ensiklopediyası: Azərbaycan. Azərbaycan Milli Ensiklopediyası NPB. 2007. '
2. Böyük İqtisadi Ensiklopediya. Azərbaycan İqtisadçılar İttifaqı, Bakı, I-VII cildlər.
3. Geo-economic atlas of the Republic of Azerbaijan. SAM, 2016.
4. Aras O.N.,E.Süleymanov. Economy of Azerbaijan. Baku, 2016.

**VI. Fənnin təsviri**

Bu fənn, seçmə ixtisas fənnləri siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə Azərbaycan Respublikasının iqtisadi sisteminin formalaşması, inkişaf mərhələləri və müasir dövrdə fəaliyyət mexanizmlərinin elmi-nəzəri və praktiki əsaslarının öyrənilməsinə həsr olunmuşdur. Fənn ölkənin milli iqtisadi modelinin xüsusiyyətlərini, bazar iqtisadiyyatına keçid proseslərini, struktur islahatlarını və dövlətin iqtisadi siyasətini sistemli şəkildə təhlil edir.

Kurs çərçivəsində Azərbaycan iqtisadiyyatının sahə strukturu, təbii resurs potensialı, sənaye, kənd təsərrüfatı, xidmətlər sektoru, maliyyə sistemi, xarici iqtisadi əlaqələr və regional iqtisadi inkişaf məsələləri araşdırılır. Eyni zamanda neft-qaz sektorunun iqtisadiyyatda rolu, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, investisiya mühiti və sahibkarlığın dəstəklənməsi istiqamətləri geniş şəkildə təhlil olunur.

Fənn Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi sistemə inteqrasiya proseslərini, beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı, dayanıqlı inkişaf strategiyalarını və sosial-iqtisadi inkişaf proqramlarını əhatə edir. Kurs tələbələrdə milli iqtisadi proseslərin analizi, iqtisadi siyasətin qiymətləndirilməsi və müasir çağırışlar kontekstində iqtisadi qərarların əsaslandırılması bacarıqlarının formalaşdırılmasını hədəfləyir.

Bunlarla yanaşı, Azərbaycanda ictimai, maliyyə və bank sektoru, monetar və fiskal siyasət, güzəştli kredit problemləri, kiçik və orta sahibkarlığın inkişafına dövlət yardımı, iqtisadiyyatın sektorlar üzrə təhlili, regionların sosial-iqtisadi inkişafı, büdcənin əsas gəlir və xərclərinin formalaşdırılması, neft - qaz sənayesinin müasir vəziyyəti, qeyri-neft sektoru, xarici iqtisadi əlaqələr və iqtisadiyyatın əsas inkişaf prioritetləri və perspektivlərinin öyrənilməsi və s. bu fənnin tədrisinin başlıca məsələləridir.

**V. Fənin məqsədi və vəzifələri**

**Fənnin məqsədi**

"Azərbaycan iqtisadiyyatı" fənninin məqsədi tələbələrdə Azərbaycan Respublikasının milli iqtisadi sisteminin formalaşması və inkişaf qanunauyğunluqları, iqtisadi strukturun əsas xüsusiyyətləri və müasir iqtisadi siyasət istiqamətləri haqqında elmi-nəzəri biliklərin formalaşdırılmasıdır. Fənn ölkənin bazar iqtisadiyyatına keçid prosesi, həyata keçirilən struktur və institusional islahatlar, sosial-iqtisadi inkişaf strategiyaları, iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf prioritetlərinin dərindən mənimsədilməsini, həmçinin milli iqtisadi proseslərin təhlili və qiymətləndirilməsi bacarıqlarının inkişaf etdirilməsini hədəfləyir.

**Fənnin vəzifələri**

Fənnin əsas vəzifələri aşağıdakılardır:

- Azərbaycan iqtisadiyyatının formalaşmasının əsas mərhələlərini fərqləndirə bilmək və hər bir mərhələnin əsas xüsusiyyətlərini şərh etmək;
- Azərbaycan iqtisadiyyatının makroiqtisadi parametrlər üzrə inkişaf xüsusiyyətlərini şərh etmək və bu parametrlərin formalaşmasına təsir edən amilləri üzə çıxarmaq;
- Azərbaycan iqtisadiyyatının sektorlar – sənaye, kənd təsərrüfatı və xidmətlər - üzrə təhlilini aparmaq, onların potensialını və inkişaf xüsusiyyətlərini şərh etmək;
- Ölkə iqtisadiyyatının iqtisadi regionlar üzrə potensialını, ixtisaslaşmasını və inkişaf xüsusiyyətlərini təhlil etmək;
- Azərbaycanın malik olduğu enerji ehtiyatları və onların əhəmiyyətini qiymətləndirmək və həmin ehtiyatlardan istifadənin mövcud vəziyyətini şərh etmək;
- Azərbaycan hökumətinin iqtisadiyyatın müxtəlif sahələri üzrə həyata keçirdiyi iqtisadi siyasətin əsas məqsədlərini və reallaşdırma vasitələrini izah etmək;
- Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya prosesində beynəlxalq iqtisadi təşkilatlar və regional iqtisadi inteqrasiya qurumları ilə münasibətlərinin mövcud vəziyyətini və perspektivlərini şərh etmək;
- Ölkənin xarici iqtisadi əlaqələrinin inkişaf xüsusiyyətlərini izah etmək və onların struktur təhlilini aparmaq;
- Beynəlxalq qurumların hesabatları əsasında Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsi və meyllərini şərh etmək və onun dünya iqtisadiyyatındakı yeri və rolunu müəyyən emtək;

## VI. Kursun nəticələri

Kursun, tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Azərbaycan iqtisadiyyatının inkişafının əsas mərhələlərinin xarakteristikasını;
- Azərbaycan iqtisadiyyatının 1995-2003-cü və 2004-2014-cü illəri və ondan sonrakı dövrün inkişafının başlıca xüsusiyyətlərini;
- İnvestisiya qoyuluşlarının Azərbaycan Resbublikasının dünya ölkələri ilə münasibətlərinin, formalaşmasındakı rolunu;
- Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji yol xəritəsində iqtisadi inkişafına dair nəzərdə tutulmuş prioritet perspektivlərini;
- “Qlobal rəqabətlilik hesabatı”, ‘İnsan inkişafı indeksi” Qlobal innovasiya indeksi”və s. bu kimi beynəlxalq əhəmiyyətli göstəricilərdə Azərbaycanın yeri və rolunu;
- Azərbaycanda iqtisadi fəal əhalinin sosial müdafiəsi, işsizlikdən, sığorta mexanizmi problemlərini;
- Azərbaycanda maliyyə sistemi, bank, fiskal siyasət və pul siyasətini;
- Azərbaycanın Milli prioritetlər əsasında yeni iqtisadi inkişaf strategiyasını;
- Dayanıqlı inkişaf konsepsiyasının iqtisadi, sosial və ekoloji aspektlərini;

**Bacarmalıdırlar:**

- ölkənin sosial-iqtisadi inkişaf problemlərini, cəmiyyətin eləcə də dövlətin bütün iqtisadi resurslarından səmərəli istifadə edilməsinin təhlil etmək
- Dövlət Büdcəsinə Neft fofdundan köçürülən vəsaitlərin səmərəli istifadəsində “Qızıl Qaydanın” izahını verməyi;
- Beynəlxalq lahiyələrin mahiyyətini və onların Azərbaycan iqtisadiyyatı üçün gəlirlik

baxımından əhəmiyyətini müəyyən etməyi,

- Azərbaycan iqtisadiyyatı investisiya qoyuluşlarının əhəmiyyətini təhlil etməyi və nəticələr çıxarmağı;
- Qeyri-neft sektorunun inkişafının prioritetliyini və diversifikasiyasını,
- Azərbaycanın xarici iqtisadi əlaqələrin ölkə iqtisadiyyatda rolunu,
- Tədiyyə balansı, idxal-ixrac əməliyyatının vəziyyətini qiymətləndirilməsini aparmağı və nəticələr çıxarmağı;

## VII. Fənni mühazirə mövzuları:

1. Azərbaycan iqtisadiyyatının formalaşmasının əsas mərhələləri
2. Azərbaycan iqtisadiyyatmm makroiqtisadi təhlili və iqtisadi artım .
3. Azərbaycanda əmək bazarı və sosial siyasət
4. Azərbaycanda ictimai və özəl sektorun təhlili. Antiinhisar siyasəti və rəqabət mühitinin formalaşdırılması
5. Azərbaycan iqtisadiyyatının sektoral təhlili
6. Azərbaycanda pul-kredit siyasəti və bank sektoru
7. Azərbaycanın büdcə- vergi siyasəti
8. Azərbaycanda neft- qaz siyasəti, enerji sektoru,karbohidrogen amili və yaşıl enerji
9. Azərbaycan iqtisadiyyatının regional təhlili
10. Azərbaycan iqtisadiyyatında innovasiya siyasətti və Rəqəmsal transformasiya
11. Azərbaycanın xarici iqtisadi əlaqələri
12. Azərbaycanın dayanıqlı iqtisadi inkişafının əsas istiqamətləri.

## VIII. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| S/n | Mövzuların adları | Mözular üzrə hədəflər | Saatların miqdarı |
|---|---|---|---|
| *1.* | **Azərbaycan iqtisadiyyatının formalaşmasının əsas mərhələləri** | - Azərbaycan Xalq Cümhuriyyəti: milli iqtisadiyyat yolunda ilk addımlar<br>- Sovet Azərbaycanı: sosialist iqtisadiyyatı və qoyduğu miras<br>Müstəqil Azərbaycan Respublikası: bazar iqtisadiyyatına transformasiya | 2 |
| *2.* | **Azərbaycan iqtisadiyyatmm makroiqtisadi təhlili və iqtisadi artım** | - Makroiqtisadi analiz<br>- ÜDM-in strukturu və dinamikası<br>- İnflyasiyanın hədəflənməsi<br>- İqtisadi artım və iqtisadi artımın drayverləri<br>- Inklüzivlik və iqtisadi artım<br>- Milli Gəlir və onun bölgüsü<br>- Qiymət və tarif siyasəti | ***2*** |
| *3.* | **Azərbaycanda əmək bazarı və sosial siyasət** | - əmək bazamın təhlili<br>- Azərbaycanda məşğulluq və işsizlik problemi<br>- İnsan, kapitalının inkişaf etdirilməsi<br>- Azərbaycanda minimum əmək haqqı<br>-Yoxsulluq səviyyəsi<br>Sosial müdafiə siyasəti (Azərbaycan modeli, əsas iqtisadi drayverləri) | ***2*** |

| | | | |
|---|---|---|---|
| *4* | **Azərbaycanda ictimai və özəl sektorun təhlili. Antiinhisar siyasəti və rəqabət mühitinin formalaşdırılması** | - Azərbaycanda ictimai sektorun əsas xüsusiyyətləri<br>- Dövlət sektorunun strukturu<br>- Antiinhisar siyasəti<br>- Özəlləşdirmə siyasəti<br>- Özəl sektorun strukturu<br>- Azərbaycanda sahibkarlığın inkişafı<br>-Kiçik və orta və iri sahibkarlığın təhlili | ***2*** |
| 5 | **Azərbaycan iqtisadiyyatının sektoral təhlili** | -İqtisadiyyatım struktur dəyişiklikləri və islahatları<br>- Sənayeləşmə və sənaye sektoru<br>- Azərbaycanın sənayeləşmə siyasəti<br>-Azərbaycanda sənayenin inkişafının əsas prioritetləri<br>- Azərbaycanda aqrar sektor, onun strukturu və pr ioritet isti qamətləri<br>- Xidmətlər sektoru və iqtisadi inkişafdaki rolu | ***2*** |
| *6* | **Azərbaycanda pul-kredit siyasəti və bank sektoru** | - Monetar siyasət, onun əsas istiqamətləri və elementləri<br>- Pul-kredit siyasətinin əsas prioritetləri<br>- Azərbaycanda valyuta və məzənnə siyasəti<br>-Azərbaycanın bank sektoru | ***2*** |
| *7* | **Azərbaycanın büdcə-vergi siyasəti** | - Vergi-büdcə sistemi, onun prioritetləri<br>- Ölkənin, gömrük siyasəti<br>- Dövlət büdcəsi və büdcənin strukturu<br>Dövlət borcu: daxili və xarici dövlət borcları və onun idarə olunması | ***2*** |
| *8* | **Azərbaycanda neft- qaz siyasəti, enerji sektoru,karbohidrogen amili və yaşıl enerji** | - Azərbaycanın neft və qaz strategiyası<br>- Azərbaycanın karbohidrogen potensialı və onun iqtisadi inkişafda rolu - neft-qaz layihələri<br>- Karbohidrogenlərin nəqli layihələri<br>- Azərbaycan Dövlət Neft Fondu və onun gəlirlərinin idarə olunması<br>- Enerji keçidi, bərpa olunan, enerji potensialı, hədəflər və perspektiv layihələr<br>- “Karbon neytrallığına"’ keçid:<br>- iqtisadi şaxələnmənin prioritetləri<br>- Karbohidrogen resursları ndan asılılığın zərərləri;<br>- Holland sindromu<br>- Resurs lənəti | ***4*** |
| *9* | **Azərbaycan iqtisadiyyatının regional təhlili.** | - Regionlaşma və regionalların sosial-iqtisadi inkişafı proqramları.<br>- Post-konflikt dövründə regionalların sosial-iqtisadi inkişafının xüsusiyyətləri<br>-Regionalların, sosial- iqtisadi inkişafına yeni baxış:<br>- İşğaldan azad olunmuş ərazilərin inteqrasiyası | ***2*** |

| | | | |
|---|---|---|---|
| | | -Azərbaycan iqtisadiyy atın m iqtisadi rayonlar üzrə təhlili | |
| *10* | **Azərbaycan iqtisadiyyatında innovasiya siyasətti və Rəqəmsal transformasiya** | - İnnovasiya-investisiya siyasəti<br>- Ölkənin elmi- texniki potensialı onun reallaşdırılması elmi- texniki siyasət<br>- İnnovasiya indeksinə görə Azərbaycanın mövqeyi (Müqayisəli təhlili)<br>- Azərbaycanda rəqəmsal iqtisad iyyatm inkişaf perspektivləri<br>- Rəqəmsal transformasiya strategiyası (2021-2030)<br>- Məcmu investisiyaların strukturu:<br>-Sektoral paylanma<br>-Regional bölgü<br>-Dövlət və özəl sektor investisiyaları<br>-Daxili və xarici investisiyalar | ***2*** |
| *11* | **Azərbaycanın xarici iqtisadi əlaqələri** | - Azərbaycanın xarici ticarət münasibətləri: İdxal və ixrac strukturu<br>- Xarici iqtisadi əlaqələrin formalaşması və inkişafı<br>- Tədiyyə balansı və onun strukturu<br>- Cari, əməliyyatlar hesabı və xarici ticarət balansı<br>-Maliyyə hesabı | ***4*** |
| *12* | **Azərbaycanın dayanıqlı iqtisadi inkişafının istiqamətləri** | -Dayanıqlı iqtisadi inkiaşfın məqsdələri<br>-Strateji yol xəritəsi<br>-Azərbaycan 2030: "Sosial İqtisadi inkişafın milli priorietləri"<br>-İqtisadi təhlükəsizlik<br>-Azərbaycan iqtisadiyyatının prioritet inkişaf istiqamətləri | ***4*** |
| | ***CƏMİ:*** | | ***30*** |

**<u>SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ</u>**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarım diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

**<u>DƏRSƏ DAVAMİYYƏT</u>**

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fərm üzrə davamiyyətə görə bal verilmir.

**<u>FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ</u>** *(Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları *aktivlik və ara qiymdthndirmd* ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə Seminar dərslərində alman ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3,5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**<u>Qeyd:</u>** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMÄN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fenlər istisna olmaqla) alman ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

B = (((bl+b2+b3+...+bn)/s)*m)/10

**Burada,**

B - yekun aktivlik bah;

b -seminar dərslərində alman müxtəlif ballar:

s - semestr ərzində verilən cavabların sayı;

m - aktivlik balına ayrılan maksimal bal;

10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0”. 'bal olmaqla nəzərə alınır, Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanm nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümumiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal

hesab edilir.

Semestr ərzində təhsil alanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal - 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9- cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər U'NEC-in. saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu. qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11 -ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən tənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanlarm qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan, üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz

cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər İstisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.